Xalq qəzeti.- 2024.- 25 sentyabr (№ 209).- S.10.

# Musiqi bayramının akkordları



**Artıq 6 gündür ki, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dahi bəstəkar, musiqişünas, pedaqoq, publisist, ictimai xadim Üzeyir Hacıbəylinin anadan olmasının 139-cu ildönümünə həsr olunan Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı davam edir.**

Festival çərçivəsində Bakıda və bölgələrdə, açıq və qapalı məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans, ustad dərsləri keçirilir. ABŞ, Almaniya, Xorvatiya, Avstriya, Türkiyə, Rusiya, Koreya Respublikası, İspaniya, Braziliya və digər ölkələrdən solist və bədii kollektivlər də festivalda iştirak edirlər.

Bu beynəlxalq musiqi festivalı 15 ildir ki, ənənə halını alıb. Budəfəki festivalın da proqramı rəngarəng və zəngindir. Açılış mərasimi və öncəki tədbirləri qəzetimizdə ətraflı işıqlandırmışdıq. Sonrakı günlərdə baş verənlər də musiqisevərlərə unudulmaz təsir bağışlayıb. Şuşada festival çərçivəsində görkəmli bəstəkar, dirijor və pedaqoq, Xalq artisti Süleyman Ələsgərovun 100 illik yubileyinə həsr olunan konsert maraqla qarşılanıb. Azərbaycan Dövlət Xalq çalğı Alətləri Orkestri (bədii rəhbər və baş dirijor Ağaverdi Paşayev) möhtəşəm musiqiləri ifa edib. Şənbə günü isə mədəniyyət paytaxtımızda, Üzeyir bəyin heykəlinin qarşısında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının truppası dahi bəstəkarın "Leyli və Məcnun" operasını canlandırıb.

Gəncə Dövlət Filarmoniyasında Rusiyadan gəlmiş "Universum" dueti konsert verib. Pianoçular Daniil Kirillov və Anna Rasinanın virtuoz ifaları alqışlarla müşayiət olunub. Qəbələ Rayon Mədəniyyət Mərkəzində bədii rəhbəri Xalq artisti, professor Fərhad Bədəlbəyli, baş dirijoru Əməkdar artist Fuad İbrahimov olan Bakı Kamera Orkestri çıxış edib. Solistlər Yeganə Axundova (piano) və Nəzrin Aslanlının (violin) müşayiəti ilə Gülnaz İsmayılova (soprano) və Mahir Tağızadə (bariton) öz istedadlarını göstəriblər. Tamaşaçılar Avropa və Azərbaycan bəstəkarlarının əsərlərini dinləyiblər. Şəmkirdə isə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının xor qrupu (xormeyster Naala Baratelia) zövqləri oxşayıb.

Beynəlxalq Muğam Mərkəzində kamera musiqisi axşamında "Ros Unicus" Avstriya–Azərbaycan dueti – violin ifaçısı Fərid Feyzullayevlə pianoçu Jalə Rəsulova gözəl performans nümayiş etdiriblər. Orada həmçinin "Les Essences" (Almaniya) Azərbaycanın tanınmış bəstəkarı, violin ifaçısı, Əməkdar artist Fərhəng Hüseynovun 75 illik yubileyini konsert proqramı ilə dəyərləndirib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Almaniyadan gəlmiş ünlü sənətkar Les Essencesin ustad dərsi gənclərdə böyük maraq doğurub. Xəzər Universitetinin Fikrət Əmirov adına konfrans-konsert mərkəzində isə bu təhsil ocağının kamera orkestri alqışlarla qarşılanıb. Kollektivin bədii rəhbəri Zülfiyyə Sadıqova, dirijoru Meri Çeminavadır. Filarmoniyada Yalçın Adıgözəlzadənin dirijorluğu ilə Koreyanın "Kavatina" kvarteti çıxış edib.

Dünən axşam Kamera və Orqan Zalında Səid Rüstəmov adına Xalq çalğı Alətləri Orkestrinin (bədii rəhbər və baş dirijor Mustafa Aşurov) uğurlu çıxışı olub. Eyni zamanda Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Dyagilev – zaman(lar) aşırımında" layihəsi təqdim edilib. Georq Blümlün səhnə konseptini rəqqaslar Vladimir Varnava və Diana Mukhamedşina canlandırıblar. Bu səhnədə bir həftə ərzində Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" (100-cü dəfə), "Leyli və Məcnun" "Arşın mal alan", "Ər və arvad" tamaşaları anşlaqla keçib.

Xatırladaq ki, Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalına sentyabrın 28-də yekun vurulacaq. Qarşıdakı günlərdə də sənətsevərləri maraqlı təqdimatlar gözləyir.

***Ə.DOSTƏLİ***

***XQ***